# Müharibənin qar uşaqları



Emin Piri

*Dekabr ayı. Müharibə bitib. Müqaviləyə əsasən boşaldılan Laçın şəhərinə getməliydik. Evə zəng etdim. Sonra bacım qızı Ləmanla danışdım. Bimirəm, necə təzaddırsa müharibə adamın yadına daha çox sevdiyi insanları, xatirələri salır. Ən çoxsa uşaqlığını. Bəli, məzh uşaqlığı. Və ya həyatında olan uşaqlar. Vəhşilik içində adam uşaq saflığı axtarır, uşaq təmizliyini özləyir.*

*Hə, bacım qızı Ləmanla danışırdım. Oraların necə olduğunu soruşdu. Ətraf Kiçik Qafqaz dağları, hər yan qar. Hər tərəf ağappaq qardı;-dedim.*

*"Dayı, ordan gələndə mənə qar gətir də. Qartopu oynayaq"-dedi.*

*Uşaqlar müharibəyə də bəzən öz gözləriylə baxır. Bəlkə də elə bilirlər müharibələr uşaqların qartopu oynmaq istəyinə görədir.*

*Bəlkə də bu qartopu istəklərindən doğan müharibələrə görə özlərini qınayırlar. Amma nə bilələr ki, böyüklərin qaropu oyunu anaların, sevgillərin, bacıların göz yaşlarıdır.*

*Düzdü, özümlə qar gətirə bilmədim. Amma inanıram ki, bu ölkənin uşaqları yaxın gələcəkdə ürəkləri istədiyi qədər Qarabağ torpaqlarında qartopu oynayacaqlar.*

*Özümlə gətirməsəm də sizə ürək dolusu qar gətirmişəm, əziz uşqlar!*

*Elə bu kiçik yazını vaxtilə yazdığım "Əlcəkli qar" şeiri ilə bitirirəm.*

*Yağma, qar,*
*yağma*
*əlcəyim olmasa da*
*əllərim üşümür mənim.*
*Atamın*
*"daha yeddi yaşın var*
*böyük kişisən*
*heç kişi də əlcək taxar?!"*
*sözləri üşüdür məni.*

*Yalan danışmağı bacarmır atam*
*dodaqlarının titrəməsindən*
*gözlərinin dolmasından bilinir*
*ciblərinin yalanı.*
*Qar qardaş,*
*dünyanın ən təmiz*
*yalanı sənsən.*

*Qar qardaş,*
*mənə görə yox*
*atama görə yağma,*
*ata oğul arasına girmə, qar.*

*Yağma,*
*çirkli əllər atmasın səni*
*çirkli ayaqlar altında*
*əzməsinlər təmizliyini.*
*Təmiz dillər*
*çirklənməsin sənə görə,*
*yağma.*

*Uşaqların sızıldayan*
*barmaqlarında üşümə,*
*isti əlcəklərində qızın, qar.*

*...Uşaq əllərini özləmişdi qar*
*qar vardı*
*uşaqlar yoxdu*
*müharibə qovmuşdu*
*yavruları torpaqlarından.*
*onların yerində*
*tanklar oynayırdı.*
*qar ağlayırdı uşaqlarçün,*
*can verirdi*
*tankların*
*qanlı tırtılları altında.*

*Qar istəyir uşaqlar*
*tanksız,*
*yalansız,*
*əlcəkli qar.*
*Yağırsansa belə yağ, qar!*

ədalət.- 2021.- 6 noyabr.- S.3.